**Xalqın içindən çıxan elə istedadlı şeir-sənət insanları var ki, onlar el şairləri səviyyəsində müdriklik zirvəsinə yüksəlməklə öz qələmləri ilə yeni bir poetik söz kəhkəşanını yaradırlar. Belə yaradıcı müdrik insanlardan biri də iki kitab (1;2) müəllifi Aydın Qədimoğludur.**

# Yaşın müdriklik zirvəsində yaşanan kədər və sevinc...



*Aydın Qədimoğlu*

Kitablarlı Aydın Qədimoğlunun övladı Söhrab Abbasov tərtib etmişdir. Kitablara Xalq şairləri N.Həsənzadə və S.Rüstəmxanlı ön söz yazmışlar. Hər iki kitabda "Müəllifdən" qeydləri verilmişdir. İkinci kitaba üstəlik, Aydın Qədimoğlunun qələm məhsulları və mənəvi-əxlaqi keyfiyyətləri haqqında onu yaxından tanıyan, sevən, yaradıcılığına ehtiramla, məhəbbətlə yanaşan A.Qaraçənli, şairə N.Gültac, prof. Z.Nəbibəyli, K.Abbasov, Ehtiram müəllim, jurnalist Q.Kamalqızı, şair Ə.Saldaş, şair-publisist Ə.Ə.İlyasov kimi insanların ürəkdən gələn səmimi sözləri də əlavə edilmişdir.

Kimdir Aydın Qədimoğlu?Onun şeirləri bizə nə deyir? Yaradıcılığı ideyaməzmun və forma-janr etibarilə hansı özəl xüsusiyyətlərə, hansı məziyyətlərə malikdir?

Yuxarıda qarşıya qoyduğumuz suallara şairin nəşr edilmiş iki kitabı hərtərəfli və dolğun cavab verdiyinə görə biz də fikrimizcə, həmin kitablara istinad etməklə onlardan sitatlar versək, məqsədimizə əsasən çata bilərik və hörmətli oxuculara Aydın Qədimoğlu imzasının, şəxsiyyətinin ağır-sanbal dəyər-qiymətini tanıtmağa müvəffəq olarıq.

Əvvəlcə Aydın müəllimin qısa tərcümeyi-halına nəzər salaq:

Abbasov Aydın Qədim oğlu (Aydın Qədimoğlu) 1935-ci ildə Laçın rayonunun Pircahan kəndində dünyaya göz açmışdır. O, 1949-cu ildə Pircahan kənd yeddillik məktəbini bitirmiş və həmin ildə də Laçın pedaqoji texnikumuna daxil olmuş, 1953-cü ildə orta ixtisas təhsilini uğurla başa vurmuşdur. 1953-cü ilin sentyabrında Kəlbəcər rayon xalq maarif şöbəsinin əmri ilə rayonun Milli kənd ibtidai məktəbinə müəllim təyin edilmişdir. 1954-cü ilin oktyabr ayında hərbi xidmətə çağırılmış, üç ildən sonra yenidən əvvəlki iş yerinə qayıtmış və daha bir neçə il Kəlbəcər rayonunun ayrı-ayrı kəndlərində fəaliyyətini davam etdirmişdir. 1959-cu ildə Aydın Abbasov Maarif Nazirliyinin əmri ilə Laçın rayonu xalq maarif şöbəsinin sərəncamına göndərilmiş və rayonun müxtəlif kənd məktəblərində müəllimlik etmişdir. 1970-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsində (qiyabi şöbə) ali təhsil almışdır. 1972-ci ilin sentyabr ayından 1992-ci ilə qədər - Laçın rayonu erməni təcavüzkarları tərəfindən işğala məruz qalanadək öz doğma kəndində (Pircahan kənd orta məktəbi) ixtisası üzrə - tarix müəllimi işləmiş və müxtəlif vəzifələrdə çalışmışdır.

"Sabahım Laçındı" Aydın müəllimin ilk kitabıdır. Kitabda müəllifin ayrı-ayrı illərdə qələmə aldığı müxtəlif səpkili 204 şeiri toplanmışdır.

Xalq şairi N.Həsənzadə yazır:"Aydın Qədimoğlunun yaradıcılığına diqqət etdikdə onun şeirlərində ağrılı-acılı, kövrək mısralar həddən artıqdır...Bu kövrəkliyi təkcə onun köçkünlük həyatı ilə bağlamaq o qədər də düzgün olmazdı. Burada onun keçmişə, kökə bağlı qürur hissindən kövrəldiyi, qəhərləndiyi də açıq-aşkar hiss olunur...(1, s.6-7)

Aydın Qədimoğlunun kitabdakı şeirlərinin elə təkcə sərlövhəsinə ötəri nəzər salmaq kifayətdir ki, onun rəngarəng poetik dünyasının axar-baxar genişliyini görə bilək: "Dağlarım", "Ay bənövşə, hardasan?", "Ağla, gözlərim, ağla", "Mənə qaçqın deməyin", "Mamadağ", "Dağ nisgili", "A dağlar", "Durnalar", "Xəyanət", "Ya qismət", "Dağlar", "Yolum dağlara", "Ana torpağım", "Döz, ürəyim", "Qocalıq", "Ötən günə gün çatmaz", "Zəmanə", "Dərdi-sərim məni şair eləyib", "Yoruldum", "Dünya", "Ayrılıq", "Ana dərdi", "Analar", "Ağlama, quzum, ağlama", "Ema", "Sarıköynək", "Elə qəmli-qəmli çalma sən Allah", "Bir ölüm" "Təcnis", "Bayatılar"...

Aydın Qədimoğlu ilk şeirini 1953 -cü ildə Kəlbəcər rayonunun Milli kəndində müəllim işləyərkən yazmışdır. Özünün etirafına görə, saza-sözə, aşıq yaradıcılığına olan həvəsi elə Kəlbəcər həyatı ilə bağlıdır.Aydın müəllim özü bu barədə belə yazır: "Kəlbəcər həyatı gələcək ömür yollarımda çox dərin izlər buraxmışdır. Yaxşı insanların əhatəsinə düşmüşdüm...Mənim yazılarımda qəm üstündə köklənmiş seirlər daha çoxdur. Bu da səbəbsiz deyil. Vaxtsız ata-ana itkisi, oğul itkisi, qəriblik, Vətən ayrılığı, Vətən həsrəti...(1, s.9-10)

Aydın Qədimoğlu bir tərəfdən qəlbinin dərinliyindən qopan nalə və acı kədərlə "Nisgilim, fəryadım, ahım Laçındı" deyirsə də, gələcəyə olan son ümidini, inamını, nikbinliyini itirməyərək sevinclə bəyan edir ki, "Gülər üzüm, şən sabahım Laçındı". (1, s.13)Aydın müəllim vəsiyyətini isə belə edir:

Aydınam, arzumdan dönən deyiləm,
Elə məşələm ki, sönən deyiləm.
Yurdumu, yağıynan bölən deyiləm,
Tanrı heç çəkməsin sınağa məni,
Laçında tapşırın torpağa məni.(1, s.15)

Hələ XVI əsrdə Məhəmməd Füzuli şeirdən birinci növbədə bəşəri dərd, müqəddəs kədər tələb edirdi. Şeir söyləmək bacarığı barədə nəsihət verənin (Naseh) dili ilə dahi şairimiz deyirdi: "Sən bu möhnət beşiyində məşəqqət südü ilə bəslənmiş və buranın suyu və havası ilə yetişib böyümüsən. Bilirəm ki, sən dərdli yaranmısan. Dərd isə şairliyin əsas sərmayəsidir. Şair olmaq üçün demə ki, zövqü səfa lazımdır. Dərddən danış ki, şeir yarışında söz topunu apara biləsən". (3, s.19)

Aydın Qədimoğlu da yazır:

Mən ki şair doğulmadım anadan,
Dərdi-sərim məni şair eyləyib.
Qəmin dustağıyam başdan, binadan,
Dərdi-sərim məni şair eyləyib.
... Aydınam, dərdlərim sirdaşım oldu,
Dərdlərim ən sadiq yoldaşım oldu,
Dərdlərim sevincim, göz yaşım oldu,
Dərdi-sərim məni şair eyləyib. (1, s.113)

"İndi yol gedirəm doxsana sarı" Aydın Qədimoğlunun ikinci kitabıdır. Bu topluda onun əsasən son illər yazdığı 275 şeiri cəmlənib. Kitabın əsas mövzusu yenə Vətən həsrəti, yurd dərdidir.









Laçına, Kəlbəcərə, onun səfalı, dilbər guşələrinə, dağlarına, insanlarına həsr edilmiş bədii nümunələr oxucunun zövqünü, incə duyğularını oxşayır. Aydın Qədimoğlu bu kitabında da birinci kitabında olduğu kimi mərhum həyat yoldaşı Elmira xanıma (Ema) bir xeyli şeirlər həsr edib.

Xalq şairi S.Rüstəmxanlı yazır: "Aydın müəllim Azərbaycan aşıq poeziyasının böyük ənənələrini dərindən mənimsəmiş, bu poeziyanın bütün ölçü-biçisinin, ifadə imkanlarının bu günümüzün duyğu və düşüncələrini ifadə etməkbaxımından necə böyük imkanlara malik olduğunu nümayiş etdirməyi bacaran qələm sahibidir. Qoşma, gəraylı, bayatı... Ən çox müraciət etdiyi şeir biçimləri bunlardır". (2, s.21)

Aydın Qədimoğlunun şeirlərində dərd, qəm, kədər, eşq, sevgi, məhəbbət, zaman, insan, ürək, tanrı, Allah, cavanlıq, gənclik, qocalıq, ömür, möhnət, ayrılıq, tale, bəxt, ana kimi söz və anlayışlara tez-tez rast gəlirik. Bu da şairin həyatı müdriklik zirvəsində bütün rəng və çalarları, xüsusən kədər və sevinci ilə qəlbən yaşamaqla idrakın gözü ilə görə bilməsindən irəli gəlir. Onun insanlar üçün arzuladığı bir məkan varsa da, o da dərd olmayan yerdir:

Baş götürüb gedək, qardaş,
Gedək dərd olmayan yerə.
Fələynən girmə oyuna,
Gedək dərd olmayan yerə. (2, s.168)

Aydın müəllimin ötən günləri, keçmişinin acılı-şirinli xatirələri onu yazıb-yaratmağa səsləyir, riqqətə gətirib ürəyini boşaltmağa sövq edir: "Zaman içində", "Ömrümün ətirli baharı keçdi", "Qaytar keçmişə məni", "Mənim bu dünyaya yazığım gəlir", "Dünyanın sonudur bəlkə", "Zaman səni gözləmir", "Bəxtimin bəxti olmayıb", "Dünya", "Ömrüm sona yetişdi", "Dərd də çıxıb yadımdan", "Allah", "Dünyamızın dünya boyda dərdi var", "Canım oy!", "İlahi", "Doğulmuşam dərd-qəminən qoşa mən", "Dərd özü tapar adamı", "Qocalıq", "Dünya mənim deyilmiş", "Nəvəm Aydana", "Ay Ema", "Sanki öz dünyamı itirmişəm mən", "Dağı dağ üstə", "Taleyimə bax", "O günlər olaydı", "Gənclik - ömrün baharı", "O dağlardadır", "Gücüm bu torpaqdadır", "Gedə bilərəmmi Laçına sənsiz?", "Salam, ay Kəlbəcər, salam, ay Laçın", "Nilay və Məryəmə (nəvələrimə)", "Pircanım mənim", "Bu da mənim taleyim"...

Aydın müəllimlə Elmira xanımın sevgisi, onların bir-birinə bağlılığı, sədaqəti və hazırda qocamanAydın Qədimoğlunun Elmira həsrəti sözün əsl mənasında bir romandır, bir dastandır.

Aydın Qədimoğlu uzun illər bir pedaqoq kimi Kəlbəcərdə, Laçında neçə-neçə gənc nəslin yetişməsində böyük zəhmət çəkmişdir. Ziyalı kadrlar yetişdirmişdir. 2010-cu il Aydın müəllimin pedaqoji fəaliyyəti başa vurub təqaüdə çıxdığı, özü demişkən, işləməyə əlvida deyib oturaq həyata keçdiyi ildi: "Həmişə deyirəm: nə öyrətmişik, nə öyrətməmişik, nə demişik, nə deməmişik, onlar qalsın bir kənara, 60 il jurnal götürüb sinfə girib sinifdən çıxmışam. Mənim 60 ilə yaxın fasiləsiz əmək stajım var". (2, s.42)

O, bir el ağsaqqalı olaraq nəsihətli şeirlərində uşaqları, gəncləri milli ruha, kökə, torpağa, kəndə, elə-obaya bağlılığa səsləyir,onlara yurdsevərlik, vətənpərvərlik dərsi öyrədir. Vətən həsrəti, yurd sevgisi, təbiətə vurğunluq onun şeirlərinin başlıca mövzusudur. Bir müəllim, pedaqoq olaraq onun kitabındakı şeirlərində didaktik istiqamət qabarıqdır:

Keçib səndə cavanlığım, gəncliyim,
A doğmaca yurdum, Pircanım mənim.
Qərinələr ötüb, zamanlar keçsə,
Sənsən bir əbədi ünvanım mənim.
A doğmaca yurdum, Pircanım mənim.(2, s.326)

Gördüyümüz kimi, ideyaməzmun dərinliyi, mövzu əlvanlığı, forma-janr zənginliyi Aydın müəllimin yaradıcılığı üçün əsas məziyyətlərdir.

Səksən yeddi yaşlı təqaüdçü Aydın Qədimoğlu iyirmi ildən çoxdur ki, Bakının Pirşağı qəsəbəsində yaşayır. Bu gün Aydın müəllimin 2 oğlu, 5 qızı, 14 nəvəsi var. O, yaşının müdriklik zirvəsində xalqımızla birlikdə Qarabağın işğaldan azad olunmasını Zəfər bayramı kimi sevinclə yaşayır...

Məni daha tanıdınmı, oxucum?
Bax bu mənəm, bu da mənim taleyim.
Ömür kitabımı vərəqlədinmi?
Bax bu mənəm, bu da mənim taleyim. (2, s.327)

Bəli, tanıdıq, Aydın Qədimoğlu, sənin kədərli-sevincli taleyini, müdrik ömür yolunu tanıdıq, o, hələ davam edir və ölməzliyə doğru davam edəcək, çünki xalqını, millətini sevərək El üçün, Vətən üçün şam tək əriyənlərin qisməti əbədiyyətdir!

***Rasim NƏBİOĞLU***
***tədqiqatçı-yazar, fəxri professor***